Aydan Cəbili

# Kölgələrin saflığı

I Cild

QANUN NƏŞRİYYATI

*Kölgələr məsum insanları alıb aparır. Kölgələr Krallığının yeri bilinmədiyi üçün heç kim sevdiklərini xilas edə bilmir. Buna görə hamı kölgələrə nifrət edir. Mira adlı gənc qızdan başqa. O, kölgələrin saflığına inanır. Buna görə Kölgələr Krallığını axtarmağa gedir. Yollar isə çox qorxuludur. İtmiş varisin üzə çıxmasını istəməyənlər onu öldürə bilərlər. Bu, Miranın sirridir. Heç kimə demir. Lakin Zefan adlı oğlanla tanış olandan sonra sirr bir-bir çözülür.*

*"Kölgələrin saflığı" Miranın qeyri-adi macərasından bəhs edir.*

*Hadisələrin həyəcanlı ardıcıllığı oxucunu gözlənilməz finala qədər öz ardınca aparır.*



Kölgələr Krallığı
Talvia Krallığı
Almera Krallığı
Marvia Kra
Narvia Krallığı
Lunaria Krallığı



Velora Krallığı
allığı
Selora Krallığı



*Gücünü bilmədən*
*yaşayan qızlara...*

## HANSI KÖLGƏLƏRİN SAFLIĞI OBRAZISAN?

**1. Qaranlıq sənə bir seçim təklif edir: bir həqiqəti öyrənəcəksən, amma bunun əvəzində bir xatirəni itirəcəksən.**

A) Ən azından nəyi itirdiyimi bilmək istəyərəm.

B) Həqiqət daha vacibdir. Xatirə məni zəiflədirsə, getsin. Nəyi itirdiyimi bilmək istəmirəm.

**2. Kimsə sənə xəyanət edir. Onu hələ sevirsən.**

A) Niyə etdiyini bilmək istəyərəm. Bəlkə, hələ gec deyil.

B) Susaram. İçimdə qırılaram, amma geri dönmərəm.

**3. Gücün var, amma bu güc səni sevdiklərindən uzaqlaşdıracaq.**

A) Gücdən imtina edərəm. Tək qalmaqdan qorxuram.

B) Qəbul edərəm. Tək qalsam belə, məqsədimdən vaz keçmərəm.

**4. Bir sirrin var, açsan, hər şey dağılacaq.**

A) Yük ağırdır. Bölüşmək istəyirəm.

B) Bu yük mənimdir. Daşımağı bacarıram.

**5. Düşmənin diz çöküb, səndən mərhəmət gözləyir.**

A) Ona mərhəmət edərəm.

B) Əllərim titrəyər… amma o, zamanında mənə mərhəmət etməyib, mən də ona etməyəcəm.

**6. Səni sevən biri "getmə" deyir.**

A) Qalıram. Onu tərk edə bilmərəm.

B) Getməliyəm. Qalsam, ikimiz də yanarıq.

**7. Səncə, insanı ən çox dəyişdirən nədir?**

A) Sevdiyi birini itirmək qorxusu.

B) Özündən gizlətdiyi həqiqət.